# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Noyabr 2023 (35)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.

**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL**
**Ədəbi tənqid məsələləri üzrə menecer:** **Sərvanə DAĞTUMAS**
**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət EMİNQIZI**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Leyli Nur Novruzova, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağaməd, Əsgər Ordubadlı, Alik Dənizsevər , Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç). Caroline Laurent Turunc (Fransa)

# BU SAYIMIZDA

Baş redaktordan ........................................................ 3
Yazarlar jurnalı ........................................................ 4
15-oktyabr - tarixi gün ........................................................ 5
Qalib lider, qalib xalq! ........................................................ 15
Akif Abbasov yazır. ........................................................ 17
İldırım Əkbəroğlu. Azərbaycanım ........................................ 25
Mahirə Nağıqızı. Ana dilim ........................................ 36
Zaur Ustac Zəfər yolunda ........................................ 38
Murad Məmmədov. Gözün aydın olsun, Vətən! ............... 59
Turan Novruzlu. Şeirlər... ........................................ 75
Təranə Dəmir. “Ulduz” haqqında.. ........................................ 87
Qələmdarlar tribunada ........................................ 91
***Foto qalareya-təqdimatlar-təbrik*** ........................................ 94

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan “Yazarlar”ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***“Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək”*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan “Yazarlar” kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **“YAZARLAR”** **dan sifariş yolu ilə əldə edə bilərsiniz. Mobil telefonla əlaqə:** (+994) 70-390-39-93
“YAZARLAR, ANCAQ YAZARLAR…” © YAZARLAR



**Zaur USTAC**

## BAŞ REDAKTORDAN

Salam olsun, dəyərli oxucular!
Jurnalımızın Noyabr 2023-cü il (35-ci sayı) ilə görüşünüzə gəlmişik.
Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında daim müdrik siyasi lider həmçinin müasir müstəqil Azərbaycanın qurucusu kimi yaşayır! Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Müasir Azərbaycanın tarixi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır! Bildiyiniz kimi "Yazarlar" jurnalı olaraq bu ilə kiçik töhfə vermək məqsədilə jurnalımızın May 2023-cü il (29 ) sayını "Heydər Əliyev -100" başlığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr etmişik. Bundan başqa "Ümummilli Lider" adlı xüsusi buraxılşımız işıq üzü görüb. Poçtumuza yazı göndərən şəxslərə bildirmək istəyirəm ki, mövzuya uyğun göndərilmiş yazılar növbəli şəkildə dərc olunacaq. Jurnalımızın 2023-cü il Noyabr sayını isə demək olar ki, şanlı Zəfərimizə həsr etmişik. Murad Məmmədov demişkən: - "Gözün aydın olsun, Vətən!"

## "YAZARLAR" JURNALI

### "Yazarlar" jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən yazarlar "Müstəqil Yazarlar Konfederasıyası" adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar "Yazarlar dərnəyi" adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət "Yaradıcılıq Komissiyası" adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- "Yazarlar" jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.**

Dövlətimizin başçısı burada çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz həmvətənlər.

Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən

çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm.

Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda, düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı – bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss

etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə – hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il “Heydər Əliyev İli”dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Mən Ulu Öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilməmişdir. Nə üçün? Ona görə ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə,- artıq sağlamlığı o qədər də yerində deyildi, – Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında

keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim. Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.

Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl – 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt -1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdır, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, “Xocalıya ədalət!” hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc

yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycan büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi.

Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdı. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan

Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq Ulu Öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü “prezident” adlandırmış üç təlxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik.

Bax, burada oturmuş özünü “prezident” adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü “baş nazir” adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü “xarici işlər naziri” adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***İlkin mənbə: president.az***




**XALQIMIN, ORDUMUN İLHAMI İLHAM!**

Ən uca kürsüdən dedi sözünü,
Bircə hərəkətlə sildi yüzünü,
Bilmək istəyirsən əgər düzünü,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!
* * *
Əvvəlcə xainin qırdı belini,
Sonra namərdlərin kəsdi dilini,
Sevdi obasını, sevdi elini,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!
* * *

Yüz ölçdü, bir biçdi, ustdan usta,
Mizanı yerində; nə tez, nə asta,
Cəngilər çalındı bu dəfə “Rast”da,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!
* * *
Bir həmlədə pozdu kələyin, fəndin,
Uçudu, dağıtdı illərin bəndin,
Hər dəfə yanıltdı düşmənin zəndin,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!
* * *
Ustaca bəllidi zamanın feli,
Taixdə dastandı babamın qolu,
Dəmir yumruq oldu İlhamın əli,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, ordumun ilhamı İlham!

**Müəllif:** **Zaur USTAC**



## ÇAĞDAŞ POEZİYAMIZIM SAYILIB-SEÇİLƏN NÜMAYƏNDƏSİ

*Söhbət filologiya elmləri doktoru, professor Mahirə Nağıqızından gedir.*

Mahirə xanım Azərbaycan Dövlət Pedaqoji Universitetin beynəlxalq əlaqələr üzrə prorektorudur, Prezident təqaüdçüsüdür. Filologiya elmləri sahəsində səriştəli tədqiqatçıdır. Fəlsəfə doktoru elmi dərəcə almaq üçün "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" mövzusunda (2012); elmlər doktoru elmi dərəcə almaq üçün isə "XIX-XX əsr Qərbi Azərbaycan aşıq və el sairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)" mövzusunda (2017) dissertasiyalar müdafiə etmişdir.
Mahirə Nağıqızı tanınmış alim olmaqla yanaşı istedadlı şairdir, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Gözəl şeirləri vardır. Qələmindən neçə-neçə şeir kitabı çıxmışdır. Diqqət yetirək:

“Mənim anam” (2006), “Su at dalımca, ana” (2006), “Ana sevgisindən doğan nəğmələr” (2008), “Yaşadacaq anam məni” (2009), “Ana kəndim Xalxalım” (2010), “Ömrün çıraqdır sənin” (2010), Sözün hikməti” (2012), “Analı dünyam” (2015), “Haqqa çağıran səs” (2015), “Dilimiz – varlığımızdır” (2021), “Salam Olsun (vətənpərvərlik şeirləri)” (2021) və s.
Azərbaycan bəstəkarları tərəfindən Mahirə xanımın sözlərinə 30-dan artıq mahnı bəstələnmiş, aşıqların ifasında 70 mahnı səslənmişdir. Bəzi mahnıları diqqətə çatdıraq: Sevinc Mansurovanın bəstəsində “Azərbaycan” və “Layla çal, yatım ana; (hər iki mahnının ifa edir Gülüstan Əliyeva), “Ata Heydər, oğul İlham”, Arif Səlimovun bəstəsində “Ay ana”, “Ana”, “Balam” (mahnıların ifası: Gülyanaq Məmmədova); Tahir Mahiroğlunun bəstəsində “Ata” (ifa: Eldəniz Məmmədov); Tahir Əkbərin bəstəsində “Qısqanıram (ifa: Bəyimxanım Vəliyeva) və s.
Mahirə Nağıqızınn şeirləri mövzu müxtəlifliyi, mövzu rəgarəngliyi, məzmun dolğunluğu baxımdan diqqəti cəlb edir. İlk növbədə qeyd etməliyik ki, o, vətənpərvər şairdir. Əsərlərində milli ruhun təbliği, milli özünüdərkə xidmət özünəməxsus yer tutur. Vətən sevgisini, onun bütövlüyünü, toxunulmazlığını, müstəqilliyini, azadlığını dönə-dönə vurğulayaraq doğma yurdu vəsf edir. Torpaqlarımızın işğal altında olduğundan yana-yana danışır, lakin inanır ki, gec-tez tutulmuş ərazilərimizə sahib olacağıq. Erməni faşist işğalçılarına qarşı sonsuz nifrətlə mübarizəmizdən, müharibəmizdən söz açır, erməni ordusunu 44 gün ərzində darmadağın etməyimizi, zabit və əsgərlərimizin fədakarlığını, şəhidlərimizin, qazilərimizin böyük hünərini parlaq boyalarla işıqlandırılır. “Salam olsun” şeirini yada salaq:

Rəzil oldu bizi qüvvə saymayanlar,
Qanda batdı qan içməkdən doymayanlar.
Bu milləti yıxılmağa qoymayanlar,
Dünyada hər anınıza salam olsun!

Bu tarixi qələbədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rolu xüsusi vurğulanır, Vətən müharibəsində ölkəmizə dəstək duran Rəcəb Tayyib Ərdoğan böyük məhəbbətlə yad edilir:

Adı qalar zaman-zaman Sər doğanın,
İzi qalmaz hər olanın, hər doğanın.
İlham, sənin, Rəcəb Təyyub Ərdoğanın,
Həmişə var canınıza salam olsun!

Əldə silah, fədakarlıqla, hünərlə döyüşənlər, Vətənin azadlığı, ərazi bütövlüyü, müstəqilliyi uğrunda müharibə meydanında həlak olanlar da unudulmur:

Şəhidlərim, haqqınız var çiynimizdə,
Kəfən geydik, qalacaqdır əynimizdə,
Çıxmayacaq, yaşayacaq eynimizdə,
Tökülən al qanınıza salam olsun!

Azərbaycanımız yüz illər, min illər ərzində Vətənimizin müstəqilliyi, azadlığı uğrunda yüz minlərlə oğlunu, qızını itirmişdir. İkinci dünya müharibəsində cəbhəyə 600 mindən çox azərbaycanlı yola düşmüş, onların yarısı geri qayıtmamış, həlak olmuşdur. Birinci və ikinci Qarabağ müharibələrində nə qədər şəhid vermişik. Bir də 20 yanvar şəhidləri vardır. SSRİ rəhbərliyi öz vətəndaşlarının üzərinə tanklar yeritmiş, dinc sakinləri avtomat güllələrinə tuş etmişdir. Söhbət 1990-cı il yanvar qırğınından gedir. Mahirə xanımım “Şəhidlər” şeri sovet ordusunun xalqımıza tutduğu divanı yada salır:

Doğulub düşmənə daş atmaq üçün,
Ürəyi qorxudan boşaltmaq üçün.
Ölərlər vətəni yaşatmaq üçün,
Hər qəlbdə bir qala tikər şəhidlər.

Vətən Mahirə xanımın ən çox sevdiyi və yüksək dəyər verdiyi mövzulardandır. Əslində burada bir qəribəlik də yoxdur. Bütün şairlər ilk növbədə ana adlandırdığımız Vətəni tərənnüm edən şeir yazmışlar. Biz hamımız Vətəni, doğma diyarı sevirik. Bunu

hərəmiz fərqli şəkildə mənalandırırıq. Birimiz şeirlərilə, digəri nəsr əsəri ilə, başqası memarlıq işi ilə, kimisi onun müdafiəsinə atılmaqla, qeyriləri Azərbaycanı dünya miqyasında tanıtmaqla. Mahirə Nağıqızı da həm özünün Vətənə məhəbbəti, həm də “Qar havası var” və başqa şeirləri ilə öz mövqeyini bildirir. Diqqət yetirək:

Haraya getsəm də, Vətən, ay Vətən,
Könlümdə ruhunun var, havası var.
Ayrılıqdı bilməm, xiffətdi – bilməm,
Sənsiz hər tərəfdə qar havası var.
Köksündə dondurmaz ayazı qışın
İstisi bəsimdi bircə qarışın.
Qürbətdə küləyin, yağan yağışın,
Səsində bir ahu-zar havası var.

Mahirə xanım – anadır. Ananın insan həyatında nə demək olduğunu çox gözəl bilir və ailədə analıq vəzifələrini uğurla, yüksək səviyyədə yerinə yetirir. Şeirlərinin bir çoxunu analara, xüsusən özünün dünyalar qədər bağlandığı sevimli anasına həsr etmişdir.

Mahirə xanım 2020-ci ildə işıq üzü görmüş “Onun daş nağılı” (411 səh.) kitabına ana ilə bağlı üç şeir daxil etmişdir. Qəribə burasındadır ki, hər üç şeirini “Anama” adlandırmışdır. Əslində burada qəribəlik də yoxdur. Bu şeirlər şairin anaya, anasına böyük, dərin məhəbbətinin timsalı kimi meydana gəlmişdir.

Şairin Anaya həsr etdiyi şeirlər arasında “Saçların balladası”) şeri səmimiliyi, təbiiliyi ilə diqqəti cəlb edir. Mahirə xanım ana qayğısının, ana nəvazişinin, ana sevgisinin hamımıza tanış olan aşağıdakı notları ilə bir daha bizi tanış edir:

Hər dəfə başımı dizinin üstə –
Çəkərdi, saçımı oxşardı anam.
Bir onu, bir də ki, qulac saçıma
Dəyən nəfəsini unudammıram.

“Anama” adlanan digər şeirdə ana nikbin əhval-ruhiyyədədir. Həmişə belə olub, onu heç kim bu həyatdan gileyli görməyib:

Bir nəfər görmədi, səni bir nəfər,
Həyatdan gileyli, bəxtdən narazı.
Analar zəhmətə qatlaşan olurlar. Evin bütün ağırlıqları onların üzərinə düşür. Evdə görüləsi iş-güc çoxdur. Şeirin qəhrəmanı da hər şeyi çatdırır. Buna səhər ertə yuxudan oyanmaq, işə başlamaqla, özü də kiminsə şirin yuxusuna haram qatmamaqla nail olur,
Yadımdan çıxmaz ki, hər səhər erkən,
Elə gəzinərdin evdə yavaşdan.
Nə cür çatdırırdın, deyə bilmərəm,
O boyda işləri durub o başdan…
Şair çox düşünüb-daşınır, dağı Arana, Aranı dağa aparır. Fəqət dünyada anadan qiymətli heç nə tapa bilmir. Bunu yəqin etdikdən sonra qələmə sarılır:
Ay ana, bilirəm bu kainatda,
Qiymətli nə varsa oyun-oyuncaq
Hər şeyin qiyməti olur həyatda,
Sənin qiymətini tapmadım ancaq.
Qadınları, anaları qorumaq lazımdır. Ana böyük qüvvə, müqəddəs varlıq, evin dirəyi, övladın gözünün bəbəyidir. Uşaqların həyatında hər iki valideyn əhəmiyyətlidir. Fəqət ananın xüsusi rolu vardır. Təsadüfi deyilməyib ki, ” Uşaq atadan yox, anadan yetim qalar”. Hətta ana, qadın həyatdan köçəndə kişilərin özləri yetim qalırlar. Musa Yaqub demişkən “Qadınsız yaşamaq, ürəyinin dərdini həyat yoldaşıyla bölüşə bilməmək əzabdır!”
Mahirə xanım şeirlərinin birində ananın fikir çəkdiyini, narahat olduğunu, hətta göz yaşı tökdüyünü görüb qayğılanır. Bu onu varından yox edir. Anaya təsəlli verməyə, onun dərdini, kədərini yüngülləşdirməyə çalışır:
Yenə qəlbim göynətməsin qəlbini,
Ağ saçını suya sərib ağlama.
Kim böləcək bölünməyən dərdini,
Fəqan çəkib qərib-qərib ağlama.

İstəyir ki, anaya özünü ələ alsın, qayğılanmasın, göz yaşı tökməsin. Axı göz yaşı təsəlli ola bilər, dərdi, kədəri bir azca, azacıq yüngülləşdirə bilər, fəqət “bölünməyən dərdini heç kim bölə bilməyəcək” (“Kim böləcək bölünməyən dərdini”). Əbədi heç nə olmur, gələn – gedir, dolan – boşalır, olan – olmur. Hər şey də, şeirdə deyildiyi kimi, “gəldi-gedərdir”. Diqqət yetirək:

Ah eləmə, ahu-zarın hədərdi,
Bu dünyada hər şey gəldi-gedərdi,
Göz yaşımnan göyətmişəm bu dərdi,
Təsəlli ver, durub-durub ağlama.

Mahirə Nağıqızının qadına, anaya xüsusi dəyər verməsi təbiidir. Professor T. Novruzovun aşağıdakı fikrini mən də təsdiqləyirəm: “Mahirə Nağıqızının poeziyasının baş obrazı ANAdır”.

Mahirə xanımın bədii yaradıcılığının bir istiqamətini də Azərbyacanımızın adlı-sanlı insanlarına, məşhur elm adamlarına ünvanlanmış şeirləri təşkil edir. Bu baxımdan professor Həsən Mirzəyevə həsr etdiyi şeir səciyyəvidir:

El oğluydu, el adamı, – dedilər,
Tək qoymayıb bir adamı, – dedilər.
Ata, qardaş, əmi, dayı, – dedilər,
Dağda, düzdə Həsən Mirzə yaşayır.

Şeirdən göründüyü kimi, Həsən Mirzəyev təkcə adlı-sanlı alim, millət vəkili olmaqla öz fəaliyyətini məhdudlaşdırmayıb, el oğlu, el adamı olub, camaatın xeyrinə, şərinə yarayıb. Belələri həyatda həqiqi şəxsiyyət statusu alırlar.

Məhəbbət əbədi ehtiyacdır. Nazim Hikmətin dediyi kimi, “İnsanın ən böyük kəşfi məhəbbətdir”. Elə şair tapılmaz ki, eşq, sevgi, məhəbbətə aid şeirləri olmasın. Hətta bəzi məşhurlar məhəbbət şeirləri ilə yaradıcılığa başlamışlar. Bu mənada Mahirə xanımın şeirləırini arayıb-axtardım, görüm ki, onun məhəbbətə aid hansı şeiri var. Tapdım. Yalnız birini – “Sənsiz” şeirini diqqət mərkəzinə gətirmək istəyirəm. Onun da bir bəndini:

Bu səhra dünyamın yuxularının,
Hər gecə gəzdiyi ormanı sənsən.
Yaralı qəlbimin, xəstə canımın,
Yeganə davası, dərmanı sənsən.

Eşq ilə dikələn dərd – sarayıymış,
Başqa cür deyilən hay- harayıymış.
Sənsiz yaşadığım gün – haramıymış,
Ömrümün-günümün hər anı sənsən.

Mahirə xanımdan ötrü məhəbbət ümiddir, imandır, inam və nəhayət, həyatdır. Eşqə mübtəla olan şəxs əxlaqını saflaşdırır, mənəviyyatını zənginləşdirir, pak, kindən-küdurətdən azad olar. “Sənsiz” şeirindən göründüyü kimi, şair eşqi “yaralı qəlbin, xəstə canın davası-dərmanı” adlandırır. Aşiqi “ömrümün-günümün hər anı” hesab edir. Uğurlu bənzətmələrdir.

Mahirə xanımın şairləri arasında bir şeri (“Köhnədi”) xüsusilə məni valeh etdi. Mənalandırma son dərəcə gözəldir. Yalnız iki bəndini nümunə gətirirəm:

Zaman gedər, zaman gələr,
Dünyanın çarxı köhnədi.
Buluddan yağış ələnər,
Aparan arxı köhnədi.
Danış, dərdin mənə gəlsin,
Təki sənin üzün gülsün.
Taxda çıxan hardan bilsin,
Çıxdığı taxtı köhnədi.

Münasibət bildirək: Yağış yağır. Hamının ürəyincədir ki, yağış olsun, əkin- biçin suvarıla bişin. Suyu arx aparır, arx isə köhnədir, yağış suyunu ünvana çatdıra bilmir (“Buluddan yağış ələnər, Aparan arxı köhnədi”). .

Həyatda hamı, hər bir şəxs bir vəzifə sahibi olmaq istəyir. Amma o vəzifəni necə yerinə yetirəcək? Tapşırılan işin öhdəsindən gələ biləcəkmi? Bir çoxlarının həsrətində olduğu

vəzifə nə qədər arzuolunan, möhtəşəm olsa da, neçə-neçə insanı yola salıb. Odur ki, vəzifə alan şəxs düşünüb-daşınmalıdır: o, vəzifə taxtından düşəndə necə düşəcək? ("Taxda çıxan hardan bilsin, Çıxdığı taxtı köhnədi").
Qeyd etdiyimiz kimi, Mahirə Nağıqızının bədii yaradıcılığı əhatəlidir. Biz bu yaradıcılıqdan bəzi nümunələri diqqət mərkəzinə gətirə bildik. Təbii ki, bütün şeirlərinii üzərində dayanmaq mümkünsüzdür.
Bu yazını bitirərək bir daha vurğulayırıq: Mahirə Nağıqızı çağdaş poeziyamızın sayılıb-seçilən nümayəndələrindənidir! Qoy bundan sonra da belə olsun!
Mahirə xanımın şeirləri sevilə-sevilə oxunur! Şair sevilirsə, demək, o, əbədilik qazanıb.
Əbədilik qazanan şairlər var olsunlar!!! Mahirə xanıma uğurlar diləyirik!

**Müəllif:** **Akif ABBASOV**
***pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim.***

**MAHİRƏ NAĞIQIZI HAQQINDA**

**Mustafa Müseyiboğlu adına kitabxana**



**İldırım ƏKBƏROĞLU**

## AZƏRBAYCANIM

*(Sonetlər çələngi 15 nağmədən ibarətdir. Nağmələr doğma Azərbaycanımıza həsr edilib! Dərdim, sevincim, Azərbaycanım…)*

I

Olmasın, olmasın sənsiz bir günüm,
Ancaq qucağında uyuyaram mən.
Kimə yetə bilər harayım, ünüm
Əgər sən olmasan, ey ana Vətən.

Qdludur torpağın əzəldən, başdan
Dağlarda qarın da qığılcım çaxar.
Sənin ürəyini döyündürən qan
Mənim də qəlbimdən dolanıb axar.

Nahaqdan qəlbimə dəyən olanda,
Payız səması tək qəlbim dolanda,
Ummuşam gülndən, çiçəklərindən.

Fikirlər uçdumu uzağı çəkər,
Görüb dərdlərini sızlasam əgər
Demə uşaq kimi ağlar, kürəm mən.

II

Demə uşaq kimi ağlar, kürəm mən.
Sənin çəkdiklərin tarixdə azmı.
Sökülən, danılan, dağ çəkdirilən
Bir ana övladı de, ağlamazmı?

Çiçəklər içində çiçəyin incə,
Nəğmən nəgmələrə ilk cığır açdı.
Elə bir ocağa döndü ki, Gəncə
Bütöv yer üzünə nurunu saçdı.

Dildən dilə düşdü şöhrətin, adın
Çoxları üstünə oynatdı atın.
O gündən qaraya tutuldu günüm.

Eh, bir də həyatda deyilki yalan
Pis gözə bıçaqdır qiymətli olan
Eşit, Azərbaycan, başına dönüm.

III

Eşit, Azərbaycan, başına dönüm,
Çiçəklər oxşayar, tikanlar dalar.
Yadından çıxıbmı “Məvailər”im…
Qiymətli zər kimi oğurlandılar.

Vətən yanğısıdır, Vətən yanğısı,
Insan ürəyində dərdin dərini.
Bəlkə də dönəndə durna sırası
Oxuyur onların nəğmələrini.

Dəyişən dəyişib, qalanlar qalır,
Kimi üz çevirib astarın salır.
Tarixsə dəyişməz həməndir, həmən.

Pərvanə vurğundur yanarsa şamda,
Bəzən qovurlanıb, sızıldasam da
Sənin şöhrətinlə öyünürəm mən.

IV

Sənin şöhrətinlə öyünürəm mən
Dillərdə əzbərin birmi, ikimi.
Saysız övladın var dillərdə gəzən,
Həsən oğlu kimi, Nizami kimi

Çoxu çiçək olub öz çəmənində
Olana olan tək qiymət verən az.
Qarşımda eşmirəm ocağı mən də
Sənin çiçəyindən gülündən olmaz.

Düşüb şerləri hey dildən-dilə
Sənin Nizaminin hikməti ilə
Ilkin açmadımı dünyada bahar.

Azmı çürüyübdür qılınclar qında,
Ulu əsrlərin ulu yolunda
Qartal duruşun var, qartal adın var.

V

Qartal duruşun var, ulu adın var.
Cır meyvə gətirməz cır deyilsə tum.
Doğuldun, bələyin oldu dümağ qar
Qurdu beşiyini Turan xatunun.

Qəlbinin mayası od idi deyə
Oğlun da, qızın da pir bildi odu.
Sənin sevincinə, yaşına yiyə,
Ağsaqqal seçdilər Dədəm Qorqudu.

Başsız el-obadan əksilməz qada,
Ixtiyar sahibi şah olubsa da,
Sözü ötən olub ağsaqqalının.

Bir alaq kökündən göyərər mini
Necə ki, görmədin Aruz kimini,
Başından aşıbdır dövlətin, varın.

VI

Başından aşıbdır dövlətin, varın
Var-dövlət daş-qaşdır, qızıldır məgər?!
Şerin var bir bəndi fateh şahların
Bütöv sərvətinə, zərinə dəyər.

Çox düşüb kəsərdən baş kəsən yaraq,
Kəsərdən düşməyib sözün sətiri.
Haq sözü daş-qaşdan üstün tutaraq
Dahi olmadımı oğlun Xəqani.

Nə olsun çoxları özündən deyib,
Həmişə başını aşağı əyib
Meyvəli ağaclar, ay gözümə nur.

Keçib qanımıza qəlbindəki köz,
Nahaqdan üzünə haqq dediyin söz-
Dünyanın özünə çıraq olubdur.

VII

Dünyanın özünə çıraq olubdur.
Bir el yolunda da çıraq yandıran.
Dilindən köz alıb, dağından qürur
Yoluna nur oldu Xətai balan.

Çox tapdaq olmuşdun düşmənə, yada
Boynu bükülüydü açan gülün də.
Həsrəti qürbətdə zoğ atdısa da
Füzuli axır ki, ötdü dilində.

Doğma havasını çalmaq dəmində,
Ötə bilərsə də özgə simində….
Daha gözəl ötüb öz simi tarın.

Demə ki, dərd deyil, dərdsə də azdır.
Şerini özgənin dilində yazdı
Sinəndə göz açan söz sərrafların.

VIII

Sinəndə göz açan söz sərrafların
Vaxt olub çiçəkcə anılmayıblar.
Dilləri dillərdə ötüb onların,
Ancaq haqq yolunda yanılmayıblar.

Fəzlullah Nəimin iki bölünüb,
Dözmüsən dərdini sən uda-uda.
“Ənəlhəqq” söyləyib Allaha dönüb,
Nəsimi – dərisi soyulubsa da.

Tarix canı deyib hər soyan kəsə
Ancaq görmüşük ki, soyulan isə
Haqqın yollarına şəfəq, nur salıb.

Onunla fəxr edib öyündüm ki, mən-
Talanıb, soyulub, danılsan da sən,
Çoxunun gözləri əlində qalıb.

IX

Çoxunun gözləri əlində qalıb
Baxma ki, çoxları daş atıb sənə .
Nadir əsərlərin azmı talanıb,
Dönüb özgələrin qiymətlisinə.

Söz də tarix deyil hər yetən dana,
Qarğa verə bilməz bül-bül yerini.
Məgər çıxmadımı, de öz adına
Bodenşted Vazehin nəğmələrini?…

Qələm dediyini deyə bilməz ox,
Bu həyat yolundsa çox görünüb, çox,
Talayan alçalıb, soyan alçalıb.

Elə soyulmağın dərddimi təkcə,
Yox, sənə can atıb yetişmədikcə….
Çoxunu dərd alıb, fikir-qəm alıb.

X

Çoxunu dərd alıb, fikir-qəm alıb,
Sən çiçək açdıqca, gətirdikcə bar.
Bəzən də illərcə qonağın qalıb,
Sənə quyu qazan, tor quran da var.

Yolunda keçsək də, bir, canımızdan,
Uyduq neçəsinin əməllərinə.
Özümüz sıyrılıb öz qınımızdan,
Qırdıq özümüzü düşmən yerinə.

Qeyrət məqamında uduzmuşuq biz-
Elə ki, bilinib kəramətimiz,
Səni döndəriblər yola, səkiyə.

Sənin çörəyini yeyənlər ki, var,
Çox məqam gözləyib, çox göz qoyublar,
Qızıl qanını da sorsunlar deyə.

XI

Qızıl qanını da sorsunlar deyə
Sərhədlər keçiblər, dağlar aşıblar.
Zoru keçməyəndə keçib hiyləyə,
Söz verib, and içib “qardaşlaşıblar”.

Eləı ki hiylənin yırtılıb qını,
Əvvəl qeyrətini veriblər bada.
Dartıb bədənindən şah damarını,
əmzik tək əmiblər onu sonra da.

Xəncər qayıdarmı sipər yoxdusa ,
Övlad ürəyində təpər yoxdusa…..
Ay anam, nə xeyri deyilən sözün.

Mənim də öz gücüm çatır dilimə,
Ay Vətən, günahkar özünsən demə.
Bil, alnın açıqdır, bil, ağdır üzün.

XII

Bil, alnın açıqdır, bil, ağdır üzün.
Səndə sınmaz olan duruşa əhsən .
Ay elim, ay obam, fikir ver özün,
Bu dərdə sənsən ki, tab gətirmisən.

Bir de hansı qartal uça bilərdi
Bircə qandıyla zirvə tənində.
De, hansı torpaqda çiçək gülərdi
Sənin torpağın tək darda, çətində.

Paklıq ələnibdir səndəki oda,
Bir gözün həmişə ağlayıbsa da
Əsrlər içində gülüb bir gözün.

Baxıb keçmişinə balan kimi mən,
Üz tutub deyirəm, inan, ürəkdən
Bütövdür yerişin, bütövdür sözün.

XIII

Bütövdür yerişin, bütövdür sözün
Belə bir gedişi ariflər anlar.
Qaranlıq uçruma bürünsələr də,
Büdrəməz heç zaman bütöv olanlar.

Mən də bir övladam yuxusu sərsəm,
Taleh gəncliyimlə oynadı oyun.
Adına zərrəcə ləkə gətirsəm,
Qoy gəlsin burnumdan çörəyin, suyun.

Özümə qənimmiş mənim bu andım….
Ömür yollarında sərtlik qazandım….
Alnımı daşlara hey döyə-döyə.
Iki yad ocağa bölünməz bir ev,
Ay Vətən, qəlbimdə bütövsən, bütöv,
Qəlbini bölsə də Araz ikiyə.

XIV

Qəlbini bölsə də Araz ikiyə,
Nəğməni bir tonda çalan tarın var.
Üz tutub o taya “Şəhriyar” deyə
Səsinə səs verən Bəxtiyarın var.

Bir ağac kökündən söylə bir mənə
Iki özgə ağac çıxa bilərmi?!
Bir çay əsrlərlə biri-birinə
Söykənən dağları yıxa bilərmi?!

Açdım əllərimi qucam mən səni
Tikanlı məftillər qoymur birini,
Biri də halsızdır başına dönüm.

Təki hürsün itin, yansın çırağın,
Təki məndən olsun gələn sorağın,
Olmasın, olmasın sənsiz bir günüm.

XV

Olmasın, olmasın sənsiz bir günüm,
Demə uşaq kimi ağlar, kürəm mən.
Eşit, Azərbaycan, başına dönüm
Sənin şöhrətinlə öyünürəm mən

Qartal duruşun var, ulu adın var.
Başından aşıbdır dövlətin, varın
Dünyanın özünə çıraq olubdur.
Sinəndə göz açan söz sərrafların.

Çoxunun gözləri əlində qalıb
Çoxunu dərd alıb, fikir-qəm alıb
Qızıl qanını da sorsunlar deyə

Bil, alnın açıqdır, bil, ağdır üzün.
Bütövdür yerişin, bütövdür sözün
Qəlbini bölsə də Araz ikiyə…





Mahirə NAĞIQIZI

## ANA DİLİM

Bu dünyanın yaşı qədər tarixin var,
Sonu qədər, başı qədər tarixin var.
Dağı qədər, daşı qədər tarixin var,
Ha baş vursam bitməz qatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!
* * *
Orxonlardan üzü bəri yazın qalıb,
Altaylardan Balkanlara izin qalıb.
Çox dillərdə rəddin qalıb, izin qalıb,
Qurdnan görər qiyamatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!
* * *
Ucsuz Qıpçaq çöllərindən havalandın,
Qədim Oğuz ellərindən havalandın,
Qopuzumun tellərindən havalandın,
Sənlə atdım qaramatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!
* * *

Yurd yaratdın, xalqıma ev-eşik oldun,
Laylalarla ruhumuza beşik oldun.
Dünyamızın sərhədinə keşik oldun,
Millət etdin el-elatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!
* * *
Nizaminin hikmətini sən yaratdın,
Nəsiminin qüdrətini sən yaratdın,
Füzilinin fitrətini sən yaratdın,
Hikmət dolu söz büsatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!
* * *
Yasaların kəmfürsətə ox olacaq,
Yadlar səndə əriyəcək, yox olacaq.
“Azərbaycan”, “Heydər baba” çox olacaq,
Onlar övlad hesabatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!
* * *
Sən şahidsən, kimlər gəldi, kimlər getdi,
Oğlun-qızın haya çatdı, dada yetdi.
Bələdçisi Həsən Mirzə səni etdi,
Mahirənin kainatı, ana dilim,
Dədəm-babam amanatı, ana dilim!



## Zaur USTAC

**ZAUR USTAC ZƏFƏR YOLUNDA**

**...Əsgər haqqında ballada...**

Nədir yenə, ümman kimi,
çalxalanıb, coşdun, ürək?
İçindəki bu təlatüm,
bu oyanış de nə demək?
Həsrətdənmi, nisgildənmi,
Ürək, yenə çağlayırsan?
Anasına həsrət qalmış,
Körpə kimi, ağlayırsan...
İçindədir; ümid adlı,
qığılcımın od-alvu,
tərslik etmə, dəli könül,

intizara alış, yovu!!!
Həqiqətlər qarşısında,
Biz gücsüzük, biz heç nəyik,
Dinlə məni deyim, ürək,
Biz nəçiyik; şan-şöhrətli,



– "hüququndan keçmiş əsgər",
həmdəminə həsrət canıq,
bəzən canlı, bəzən cansız,
biz "robotuq", biz "əşyayıq"...
Bu torpaqdan yoğrulmuşuq,
Bu torpaqdan doğulmuşuq,
Yardan əfsəl, anamızın
Qulluğuna buyrulmuşuq!!!
*15.04.1995. Marağa.*



## DAĞLAR

*(Ruhuna min rəhmət dədə Ələsgər...)*

Nədəndi, ürəyim çırpınır  yenə,
Gördükcə hüsnündə məlalı, dağlar?!
Yağı cövlan edir, dağıdır yenə,
Qoynunda büsatı, cəlalı, dağlar!
* * *
Unutmaq olarmı, heç bu zilləti?
Mövcud hal-vəziyyət üzür milləti,
Onsuz da düşmənin puçdu niyyəti,
Ordumun beşiyi, vüsalı, dağlar!
* * *
Dünya belə qalmaz, dəyişər zaman,
Yenə dövran olar, həmənki dövran,
Bulaqlar başında məclislər quran,
Oğullar ərsəyə gələli, dağlar!
* * *
Ustac bulud kimi dolub, ağlamır,
Köksünün yarası qaysaq bağlamır,
Bir bilsən, ruhumu nələr çuğlamır,
Doğacaq nə zaman Hilalın, dağlar?!
*07.05.1995. Marağa.*

**ZAUR USTAC “QƏLƏMDAR-2”**



**DAĞLARIN**

*“Şuşanın dağları abı dumanlı,*
*Qırmızı koftalı, yaşıl tumanlı…”*

Əsrin dördə birin vermişik yelə,
Çulu çoxdan düşüb, çaya dağların…
Təmiz adı vardı, “quzey qarı” tək,
Bağrına xal düşüb, saya  dağların…
* * *
Başında çalma tək, ta durmur duman,
Əynində qalmayıb, nə kofta, tuman,
Lütlənib haçandır, qalıb  lüt-üryan,
Qarına qan düşüb, maya dağların…
* * *
“Göznən görən”  olduq, ta yox yalanı,
Bəh-bəhlə şəlləndik, zərli palanı,
Daranıb,  talındı, olan-qalanı,
Ah-naləsi düşüb, Aya dağların….
* * *
İgidə “Tur dağ”-ı deyib, görənlər,
Dağa oxşadıbdı,  özün ərənlər,
Hanı o ayama, ya ad verənlər?
Kalı çoxdan düşüb, haya dağların…
* * *
Ustacam, öcümü ala bilmirəm,
“Dədəm” dediklərin* deyə bilmirəm,
O döndü, mən indi dönə bilmirəm,
Səyi  məndə düşüb, zaya dağların…
*30.04.2019.  Bakı.*

**”Arsız aşıq elsiz necə yaşadı?*
*Ölsün Ələsgər tək qulların, dağlar… “*
*Aşıq Ələsgər.*



**QUCAĞINI GENIŞ AÇ…**
*( Gizir Pənçəli Teymurova həsr olunur.)*
Qucağını geniş aç, gəlirəm Ana Torpaq,
Çox döymüşdüm qapını, səhər-axşam taq-taraq,
Hər gəlirəm deyəndə, əlimdə vardı bayraq,
O qutsal əmanətin, ünvanına yetibdi…
Sancmışam Sancağımı, rahat gəlirəm indi…

* * *

Səhər-axşam deyərdim, bu canım sənə fəda,
Nə olur mənə olsun, təki sən görmə qada,

"Komandir yaxşı olsa, ordunu verməz bada",
Komutanım öndədir, gül-çiçək düz yoluna…
Sıra ilə gəlirik, yer ver girək qoynuna…
* * *

Çox dilək diləmişdim, Bayraq olsun kəfənim,
Xəyalım gerçək olub, sevinməsin düşmənim,
Dualarım qəbuldu, ağlamasın sevənim,
Ana, sən də gözünün qorasını sıxma ha…
"Oğul düşmən çəpəri", qurban gedər torpağa…
*12.04.2016. Bakı.*

**VƏTƏN OĞLU**

*(Aprel şəhidlərinin ili günü Bakıda bərk yağış yağdı…)*

Göylər də hönkürüb, ağladı bu gün,
Buludlar göz yaşın saxlaya bilmir...
Damından göz yaşı axıdan koma,
Kövrəlmiş ananı ovuda bilmir...
* * *
Hardasa, bir bala ata gözləyir,
Əlində bir Bayraq gələydi bu gün...
Müəllim istəyib stol üstünə,
Anası alaram, söyləyir hər gün...
* * *
Bir Ata istəyir oğlu bu gün də,
Həyətə tələsik girsin nə olar...
Arxaya baxmadan sürüb maşını,
Bütün gül-çiçəyi əzsin nə olar...
* * *
Elə bilirsən ki, bitər siyahı?
Dolabda islanıb bir cib dəsmalı...

Asılqan saxlamır çim su mundiri,
Havadan asılıb, bir ər sığalı...
* * *
Bir otaq küncündə bacı naləsi,
Birində qardaşın hıçqırtısı var...
Məhəllə uşağı, qrup yoldaşı,
Bu gün qəmgin durub meyvə satanlar...
* * *
Adi çörəkçi də xiffət eyləyir,
Çəkməçi çəkməsin görüb ağlayır...
Alışqan verdiyi bardakı qızın,
Bu yağış qəlbində tonqal qalayır...
* * *
Körpə uşaqlar da haçandı qəmgin,
Boylanır həyətə, ancaq görməyir...
Ana paltar ipin kəsibdi çoxdan,
Fəxrlə sərdiyin, daha sərməyir...
* * *
Göylər yas saxlayır, Yer qəribsəyib,
Təşnədir mərdlərin yeni nəşinə...
Torpaq əkənindir, əkən də bizik,
Göylərdə gəzənin Yer nə işinə...
* * *
Göylər bizə qahmar, Yer bizə mənzil,
Qəlbin dolanmasın, ey Vətən oğlu...

Nəsimi, Bəhmənyar gör nə vaxt olub?

Vətən də unutmur haqq tapan oğlu...

*02.04.2017. Bakı.*

**"DÜNYA BİR PƏNCƏRƏDİR..."**

*(Fərid Əhmədovun əziz xatirəsinə ithaf olunur...)*

"Dünya bir pəncərədir", pəncərən olsa, qardaş...
De, heç vaxtın oldumu, pəncərədən baxmağa,
Bir-iki, tələm-seyrək, boylanmağı saymasaq...
Yuxunu görmək üçün vaxt lazımdı yatmağa,
O da, Sən də yox idi, işin-gücün çox idi...
Çoxunun gözü ackən, Sənin gözün tox idi...
* * *
Yuxusuz gözündəki bu hüzn nədi, qardaş???
Yeddi ürək lazımdı, baxışına baxmağa,
Qəlb adlı əzamızı, qan vurmağı saymasaq...
Bizdə ürək nə gəzir, gözümüz yox baxmağa,
O ürək Səndə idi, baxışların ox idi...
Çoxunun haqqı yoxkən, Sənin haqqın çox idi...
* * *
"Nə yatdın ki, nə yuxu", görəsən, əziz qardaş....
Yaradan yaratmışdı, Səni oyaq qalmağa,
Ayaqüstü, sırada, göz qırpmağı saymasaq...
Yaranmışdın süzməyə, yaranmışdın dalmağa,
Düşüncə, dərin ümman, zehin, iti ox idi...
Çoxunda beş-beş olan, Səndə biri yox idi....
* * *
Damarda coşdu qanın, ürək dözmədi, qardaş...
Dizindəki təpərin bəs eylədi qalxmağa,
Dostlarının toyunda oynamağı saymasaq,
Toy-düyün də görmədin, oturmağa-qalxmağa,
Ərgənlənmiş ər idin, bəy otağın yox idi...

Çoxu sayın bilmirdi, Sənin biri yox idi...
* * *
İgid oğlu, ər idin, bilənlər bilir, qardaş...
Sənin etdiklərini ehtiyac yox saymağa,
Arada qəmli-qəmli bu baxmağı samasaq,
Eyibin də yox idi, barmaq ilə saymağa,
Yan-yörədə bildiyin, nacis, naqis çox idi...
Bilən bilir qardaşım, Sənin mislin yox idi....
*21.01.2018. Bakı.*

**ŞƏHİD HAQQI**
*(Mübarizlərin ruhu qarşısında borcluyuq…)*
Hər bir gedən şəhidin haqqı var boynumuzda,
Onlara borclu olan bir can var qoynumuzda,
Gərəkdir, sırğa ola; qulaqda, eynmizdə,
Əgər biz unutsaq da, dövran bunu unutmaz…
Bu yara hey su verər, zaman onu qurutmaz…
* * *
Bu bizim şakərimiz, həp şikarı unutmaq,
Boş-boş təsəllilərlə ruhumuzu ovutmaq,
Cismimiz oyansa da, layla deyib uyutmaq,
Bir gün biz istəsək də, dövran bizi oyatmaz…
Biz yatmaq istədikdə, zaman bizi uyutmaz…
* * *
Bir əsgər kəmərinin toqqasıcan yoxuq biz,
İllərdi ki, gözləyir; neçə qışdı, neçə yaz,
Deyir: – "Gəl bu şəhidə bir quruca məzar qaz",
Bu qədər bivec ata, yada ki, qardaş olmaz…
Vallah, atam-qardaşım bundan vacib iş olmaz…
* * *

Hər şeyi yükləmişik, Lazım bəyin belinə,
Zalım oğlu zalım da qüvvət verib dilinə,
Heç kimsə razı olmaz, bir quş səkə gülünə,
Bəs bu dağlarda yatan gül balalar kimindi?!
Ay – ulduzlu toqqalar, qumqumalar kimindi?!
* * *
Dəstəklərə yazılı, neçə-neçə adımız,
Qundaqlara qazılı, sezilməyən ay-ulduz,
Nişan durub, gözləyir; birdən düşər yolumuz,
Gəlin, o nişanların gözün yolda qoymayaq…
Bu işi, bu gün görək, sabaha saxlamayaq…
* * *
Bu işin bir yolu var, göstəribdi Mübariz!
Torpaq bizim Vətənsə, düşməlidi izimiz.
Bəsdir bəhanə etdik, bağlanıbdı yol-iriz.
Örnəkdən, ibrət alıb, cümləmiz coşmalıyıq!!!
Tikanlı məftilləri bu gün biz aşmalıyıq!!!
* * *
Dəli bilirlər bizi, doğruldaq adımızı,
Dost özün göstərəcək, tanıyaq yadımızı,
İllərdir su vermişik, püskürək odumuzu,
Belə yaşamaq olmaz, bilməliyik hamımız!!!
Mübariz gedən yolu, getməliyik hamımız!!!
*03.08.2019 – 19.06.2020. Bakı.*

## TORPAQ BİZİ GÖZLƏYİR…

*(Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə)*
Gəlmişəm görüşə yenə də, qardaş!

Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
Yadıma xırdaca günahım düşdü…
Yanında boş yerə tamahım düşdü…
* * *
Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
“Hazırdır məzarlar”, – eyindən keçir…
Yanına gələn yol çiyindən keçir…
* * *
Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
Bu süslü “otaqlar” xiffət eyləyir…
“Daş yastıq yataqlar” minnət eyləyir…
* * *
Gəlmişəm görüşə yenə də, qardaş!
Ayaqlar olmadı sonadək yoldaş…
Qollarım qoynumda qurudu bardaş…
Səngər, məzar ortaq bizi gözləyir…
Qardaş, Ana torpaq bizi gözləyir…
*23.08.2020. – Bakı. (II F.X.)*

**CAN AY ANA…**
*(Milli Qəhrəman Polad Həşimovun anasına)*
Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda, Poladının ilk dişi,

İlk addımı, gülüşü var, yeriş var…
Bu baxışdan asılıbdı murazlar…
Bu baxışda Poladının ilk beşi,
Gülərüzü, şux qaməti, duruş var…
* * *
Can ay Ana, bu baxışda nələr yox?!
Bu baxışda yoxa çıxıb diləklər,
Bu baxışda zaman da yox, məkan da…
Bu baxışda itib bütün mizanlar…
Bu baxışda dünya çöküb iməklər,
Bu baxışda yelkən də yox, sükan da…
* * *
Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda Poladın ilk rütbəsi,
Bu baxışda şərəf də var, şan da var…
Bu baxışda fəğan edir arzular,
Bu baxışda min vaizin xütbəsi…
Al don geymiş qürub da var, dan da var…
* * *
Can ay Ana, bu baxışda nələr yox?!
Bu baxışda qədər namı ağlayır,
Bu baxışda Polad adlı oğul yox…
Bu baxışda tükənibdi niyazlar…
Bu baxışda kədər qəmi dağlayır,
Mum tək yumşaq, polad kimi oğul yox….
* * *
Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda Poladının mərdliyi,
Ərənliyi, cəsurluğu, qürur var…

Baxışının hərarəti dondurar…
Bu baxışda fəxarətin sərtliyi,
Ağalığı, amirliyi, onur var…
* * *
Can ay Ana, bu baxışda nələr yox?!
Bu baxışda susub qapı zəngləri,
“Polad gəldi”, dur ayağa deyən yox…
Bu baxışda od qalayır xəyallar…
Bu baxışda itib dünya rəngləri,
“Ana” – deyə, şirin-şirin gülən yox…
* * *
Can ay Ana, bu baxışda nələr var…
Bu baxışda xanım, xatın bir Ana,
Sinəsində bağrı çat-çat olan var…
Bu baxışdan neçə Ana boylanar…
Bu baxışda Nüşabə tək şir Ana,
Tomris kimi kükrəyən var, yanan var…
*12.01.2021. Bakı.*

**DAĞLAR**
*(Zaur Ustacın Dağlara xitabən üçüncü şeiri)*
Tarix səhnəsində yetişdi zaman,
Başlanmış bu çağın mübarək, dağlar!
Hələ nə zəfərlər gözləyir bizi,
Qutlanmış novrağın mübarək, dağlar!
* * *
Dövranın gərdişi döndü, dəyişdi,
Davadan doğulan ərlər yetişdi,

Didilmiş yaralar tutdu, bitişdi,
Üç rəngli duvağın mübarək, dağlar!
* * *
Nə vaxtdır yol-iriz bağlı qalmışdı,
Qoynunda yağılar məskən salmışdı,
Canımı sağalmaz bir dərd almışdı,
Sayalı qonağın mübarək, dağlar!
* * *
Xətai qırmadı könül bağını,
Nadir unutmadı hicran dağını,
İlhamın silahı əzdi yağını,
Dəmirdən yumruğun mübarək, dağlar!
* * *
Qurtuldu yağıdan zənburun, balın,
Bir başqa görünür yamacın, yalın,
Zirvəndən boylanır şanlı hilalın,
Müqəddəs sancağın mübarək, dağlar!
* * *

Haqqa nisbət tutub ulu Ələsgər,
Andırıb, tanıdıb, bilib pərisgar,
Hər səngər məbəddi, pirdi hər əsgər,
Şuşa tək ocağın mübarək, dağlar!
* * *
Ay Ustac, min şükür arzuna yetdin,
“Dədə”n gedən yolu, sən də qət etdin,
Dolandın dünyanı yurdunda bitdin,
Doqquzu zər tuğun mübarək, dağlar!
*22.01.2021. Bakı.*



**O GÜN**

*(Milli Qəhrəman İlqar Mirzəyevin xatirəsinə)*

Hər şey belə başladı,
Gülə-gülə getmişdin...
Döndün üzdə təbəssüm,
Çöhrənə həkk etmişdin...

* * *

Tək getmişdin gedəndə,
Yüz min olub qayıtdın...
Özün getdin yuxuya,
Milyonları oyatdın...

* * *

Hər şey belə başladı,
Bütün xalq həmdəm oldu...
Cümlə aləm toplandı,
Azərbaycan cəm oldu...
* * *
Yuxudaykən əbədi,
Yatmışlara qalx dedin...
Vətənin qara dərdin
Al boyayıb, ağ etdin...
* * *
Girib torpaq altına,
Çıxartdın üzə nə var...
Bir gedişə mat idi,
Taxtada tüm fiqurlar...
* * *
Tarixində satrançın
Bəlkə də bu oldu ilk...
Qarşısında bir topun,
Vəzir olmuşdu fillik...
* * *

Hər şey belə başladı,
Qonaqların sığmadı
O gün həyət-bacana,
Məmləkəti çuğladı...
* * *
Başlanan yol qapından,
Şuşayadək uzandı...
Vətən oğlun itirdi,
Torpağını qazandı...

* * *

Belə şanlı hekayət,
Tarixdə bir, ya iki...
Lap başqası varsa da,
Möcüzədir bizimki ...
* * *

Bu dastanı qanıyla
Yazdı ərlər, ərənlər...
Bu kitabın qədrini,
Bilir yazmaq bilənlər...
*14.07.2021. Bakı.*

**USTACAM**

Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!
* * *

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!
* * *

Dərvişəm, müqqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!



Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,
İgidlər yurdunun nər övladıyam!
* * *
Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!
* * *
Göydən Yer üzünə ərmağan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!
* * *



Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi “heç”in də,
Aqillər yurdunun pir övladıyam!
*13.11.2020. Bakı.*



*Murad MƏMMƏDOV*

**GÖZÜN AYDIN OLSUN, VƏTƏN!**

Gözün aydın olsun, Vətən!
Başından duman çəkildi.
Sinəndə yaralar bitən
Yerində güllər əkildi.
* * *
Gözün aydın olsun, Vətən!
Nəsəyanlar indi yaddı.
Şəhid olan, səndən itən,
On minlərin ruhu şaddı.
* * *
Bu torpağa yad olanlar,
Sənə yamaq, ad olanlar,
Yuxu kimi yox oldular.
Yüz illərlə canımıza,
Zəhər qatan ox oldular.
* * *
Gözün aydın olsun, Vətən!
Dağlarının gözü gülür.
Otuz ildir bu torpağın
Qoxusuna həsrət qalan,

Sorağını gendən alan
İnsanların üzü gülür.
* * *
Sevin, Vətən, pis nəfisdən,
Üz qaraldan pasdan, hisdən,
Təmizləndin, pak oldun sən.
Yaraların sağalacaq,
Ağrıların çəkiləcək,
Yaddaşından silə bilsən.
* * *
Gözün aydın olsun, Vətən!
Göylərin göyə oxşayır.
Çoxdu köməyinə yetən,
Ruh halın bəyə oxşayır.

**PAYIZ DUYĞULARIM**
Payız vaxtı bu dağ, dərə,
Xəzan olur neçə kərə.
Allah çəkən bu mənzərə,
Göz oxşayır, şəhanədi.
* * *
Yazılanı düz anlamaq,
Dərk eləyib tez anlamaq,
Bir baxışdan söz anlamaq,
Kamilliyə nişanədi.
* * *
Dərd yaranıb çəkmək üçün,
Cana azar əkmək üçün.
Göz yaşını tökmək üçün,
Yəqin dərd də bəhanədi.
* * *
Qismətinə haram qatan,
Ömrü boyu yalan satan,

Tanrısına təpik atan,
Vallah, billah divanədi.
* * *
Dərviş ömrü seçənlərin,
Dərddən paltar biçənlərin,
Acı şərab içənlərin,
Murad, yeri meyhanədi.

**QOCALIQ GƏLİR**
Gah başın ağrıyar, gah da ki dişin,
Gözlərin doldusa, qocalıq gəlir.
Bu gün görmədiyin yarımçıq işin
Sabaha qaldısa, qocalıq gəlir.
* * *
Otuzdan sonrakı omrü yarı böl,
Bax ordan başlayır ağrı, acı bil.
Yaddaş ki, korşaldı, hərdən çaşdı dil,
Bənizin soldusa, qocalıq gəlir.
* * *
Dərdinə dərman ol, tanışın, yadın,
Çalış çirklənməsin həyatda adın.
Gözündə işığın, canında odun,
Biri azaldısa, qocalıq gəlir.
* * *
Ürəyin tövşüyər, əriyər yağı,
Aşa bilməyəndə dərəni, dağı.
Qurbanı olduğum qaradan ağı,
Saçına saldısa, qocalıq gəlir.
* * *
Ay Murad, rahat ol, qocalma təki,
Seçə bilirsən ki, sən tükdən tükü.
Bir cavan yanaşıb çəkdiyin yükü,
Əlindən aldısa, qocalıq gəlir.

**QƏZƏL**

Baxıram ki, vərdiş olub canımızda karlığımız,
Yaxşı sözü eşitmərik, yaman yatıb varlığımız.
* * *
Pul ödəyib dərs alarıq, oxumarıq, hey gəzərik,
Bu Vətənə, bu dövlətə sıfırdı yararlığımız.
* * *
Məsləhəti eşitmərik, imkan verməz qürurumuz,
El içində utandırar, xar edər idbarlığımız.
* * *
Hacılıq ki, şərəf olub el içində,ay əzizim,
Yalan üstə qurulubdu inan ki, dindarlığımız.
* * *
Tamah bizi məhv eləyir, gözü doymur insanların,
Yaddan çıxır, unudulur dar qəbirdə darlığımız.
* * *
İnsanları aldadırıq, ay Murad eynək taxırıq,
Özümüzü şax tuturuq, heç bilinməz korluğumuz.

**KEÇİR**

Niyyətin pak olsa, qəlbin ağrımaz,
Çəkdiyin dərd-azar ürəkdən keçir.
İnsanın qaməti niyə əyilsin?
Çünki əzabların kürəkdən keçir.
* * *
Dolğunluq dövründən öncə dərilən,
Əksər günahları Tanrıdır silən.
Qiyamət günündə sənə verilən,
Nə qədər sual var gərəkdən keçir.
* * *
Murad dinməsə də hər şeyi görür,
Gündəlik özünə hesabat verir.
İnsanlar əyilir min dona girir,
Ən ağır imtahan çörəkdən keçir.

**İNCƏYƏ SARI**

Artıq yollarımın sonu görünür,
İçimdən yol gedir, İncəyə sarı.
Əhvalım çovğuna, qara bürünür,
İçimdən yol gedir, İncəyə sarı.
* * *
Dünyanın ləzzəti gözümdən düşür,
Niyyətim od olur, içimdə bişir.
Xəyalım hər gecə daş-kəsək eşir,
İçimdən yol gedir, İncəyə sarı.
* * *
Bu gözəl dünyadan uzaqlaşıram,
Gah təpə enirəm, gah dağ aşıram.
Qaranlıq yollarda azıb çaşıram,
İçimdən yol gedir, İncəyə sarı.
* * *
Bir yandan bu isti canımı alır,
Nəfəsim təntiyir, taqətdən salır.
Nə qədər yol gəldim, izlərim qalır,
İçimdən yol gedir, İncəyə sarı.
* * *
Fikir məni boğur, həyanım olmur,
Hay- həşir salıram, duyanım olmur,
Daha günahımı sayanım olmur,
İçimdən yol gedir, İncəyə sarı.
* * *
Dərdi çox yenmişəm, yenə yenəcəm,
Yüz alov yandırıb, sonra sönəcəm.
Harda doğulmuşam, ora dönəcəm,
İçimdən yol gedir, İncəyə sarı.

**YETMƏZ**

Dərd birdimi əlac edək,
Cana yığdı, hara gedək?!

Arzular çox, ömür gödək,
Ha çabala, zaman yetməz.
* * *
Ləkə düşər bəyaz ağa,
Yüz qoruq qoy, yüz qadağa.
Bu dünyanı qavramağa
Baş sındırma, güman yetməz.
* * *
Şirin dadın çoxdur adı,
Damağından getməz dadı.
Tanrı alışdıran odu,
Söndürməyə ümman yetməz.
* * *
Tələsirsən danlamağa,
Nə uşağam, nə də çağa.
Yarəb, məni anlamağa,
Yaxşı çatmaz, yaman yetməz.
* * *
Bir nəzər sal, bax boyuma,
Yaraşığam öz soyuma.
Ay Murad, mənim hoyuma,
Ürəyimə daman yetməz.

**OLMUR**

Çəkdiyin dərd saçlarında dən olur,
Alın yazın qismətinlə tən olur.
Payız gəlir, duman olur, çən olur,
Yağış yağır, söykənməyə dağ olmur.
* * *
Gen gəzirsən kələk oğlu kələkdən,
Sınayırsan, keçirirsən ələkdən,
Yanılırsan, dad umursan fələkdən,
Gülənmirsən, kefin hər an çağ olmur.
* * *

Baş açmadım bu müəmma, bu sirdən,
Payın palçıq olur dağılır birdən.
Neyləyəsən, ay sağ olmuş ki, hərdən,
Taleyin kəm olur, bəxtin ağ olmur.
* * *
Kim deyir dərd-azar tək səni seçir,
Ay Murad, insanlar yüz dərdlə köçür.
Nə olsun könlündən oynamaq keçir,
Yaş qoymur, bəzən də canın sağ olmur.

**ALLAH BİLƏN MƏSLƏHƏTDİ**
***(İsmixan Yusubova müraciətlə)***
Bu dünya onun işidi,
Gərdiş onun gərdişidi.
Ömrü yazan o kişidi,
Allah bilən məsləhətdi.
* * *
Nəkarəyik özbaşına,
Təpik vuraq yad daşına.
Xəyal qurma boş-boşuna,
Allah bilən məsləhətdi.
* * *
Böyükləri yad eləyək,
Ruhlarını şad eləyək.
Biz kimik ki, ad eləyək,
Allah bilən məsləhətdi.
* * *
O nəsildə bir dənəsən,
Sən alimsən, dürdanəsən.
Taleyinə şükr elə sən,
Allah bilən məsləhətdi.
* * *
Saxlayırsan hörmətini,
Öz sözünü-söhbətini.

Yaşayırsan qismətini,
Allah bilən məsləhətdi.
* * *
Əlimizdən heç nə gəlmir,
Qismətini kimsə bilmir.
Dünən gülən, sabah gülmür,
Allah bilən məsləhətdi.
* * *
Bəd şeyləri dərd eləmə,
Nə istəmə, nə diləmə.
Bir tənliksən sən ölümə,
Allah bilən məsləhətdi.

**DÜŞÜNDÜKLƏRİM**

Bəzən seyr edirəm, heç nə yazmıram,
Zehnim təzələnsin, durulsun barı.
Ömür yollarında, şükür, azmıram,
Gedirəm yol alıb Tanrıya sarı.
* * *
Nələrdən keçmişəm, nələr görmüşəm,
Yadıma düşdükcə, dondurur məni.
Həyatda sevinc də, qəm də dərmişəm,
Etdiyim günahlar yandırır məni.
* * *
Tövbə son əlacdı, başqa yolum yox,
Bütün günahlarım Ona əyandı.
Yadıma salmağa indi halım yox,
Unutdum, Tanrı da bağışlayandı.
* * *
Günahsız bəndələr mələklər olur,
Oturur çiynində hey günah sayır.
Olur ki, Allah da ağlını alır,
Oğulsan doğrunu yalandan ayır!
* * *

Dünyaya gəlmədim öz istəyimlə,
Doğuldum, kimisə günahkar bilim?!
Mən öz əməyimlə, mən öz səyimlə,
Çalışdım həyatda bir yerə gəlim.
* * *
Nə qədər düzəm mən, bir Allah bilir,
Fikrimi dəyişən insan deyiləm.
İl ötür, yaş ötür, axirət gəlir,
Sanmıram, bu yaşda sınam, əyiləm.

**VƏTƏNDİ**

Bu torpaq hamıya Vətəndi, qardaş,
Hamı bu torpaqdan qüvvət, güc alır.
Bu ömür nə vaxtsa bitəndi, qardaş,
Bəs niyə kasıblar vaxtsız qocalır?!
* * *
Dünyanın dərd-səri bunamı qalıb?!
İlahi, kasıbın Allahı yoxmu?!
Dərd elə boğub ki gözləri dolub,
Göz yaşı quruyub, damcı yaş axmır.
* * *
Ruzini harına, çörəyi toxa,
Dərdi toxum bilib əkənə verdin.
Nə əkir cücərmir, çıxardır yoxa,
Əzabı göz yaşı tökənə verdin.
* * *
Vətən dara düşür, dərdini çəkir,
Özünə qəsd edir, canına qıyır.
Özüylə bərabər dördünü çəkir,
Nə işdən soyuyur, nə qorxu duyur.
* * *
Bir oğul böyütdü min bir əzabla,
Düşündü nə vaxtsa nəvə görəcək.
Bir oğlu varıydı, oğulsan tabla,

Onu da Vətənə qurban verəcək.
* * *
Ay Allah kasıba az zülüm eylə,
Vətənin dərdini alır kasıblar.
İlahi, bəndənə düzünü söylə,
Nədən üzüyola olur kasıblar?!

**DÜŞÜNCƏLƏRİM**
Təmənna güdmədim gördüyüm işdən,
Savabdır, bir şey ki əlimdən gəlir.
Əl çəkə bilmədim mən bu vərdişdən,
Neyləyək, düzünü Yaradan bilir.
* * *
İnsanın içini bir kimsə bilməz,
Hər kəsə qapalı, sirli otaqdır.
Həyatda mollalıq əlimdən gəlməz,
Çünki əməllərim çataq-çataqdır.
* * *
Ayıra bildinsə, xeyiri şərdən,
Şükr elə Allaha, səndə nəsə var.
Fikirləş, bir düşün, ağılla hərdən,
Niyə insanlıqdan çıxır adamlar?!
* * *
Günahsız doğulur əvvəl bəndələr,
Sonradan kiminsə çırağı sönür.
Ağıllı insana dünya gen gələr,
Cahilin, fərsizin kələfi dönür.
* * *
Bu dünya fırlanır, ağılla düşün,
Ağlına gəlməyən başına gələr.
Yaxşılıq eləyib gördüyün işin,
Sonu nə olacaq, bir Allah bilər.
* * *

Düz dolan, ey insan, aldatdıqların,
Dolanıb arxanca səni gəzməsin.
Yüz ağrı, işgəncə yaşatdıqların,
Səni izləməsin, səni üzməsin.

**DÜNYA**
Ay dərd çəkən, bir ayılsan, can gedir,
Qismətdimi?! Tanrı sənə yar olsun!
Dərd çəkməyən nə bilir ki, dərd nədir,
Anlamayan dərdə düşsün, xar olsun!
* * *
Acıdımı, şirindimi, bilmirsən,
Dərddən ayıl, özünə gəl, ayazı.
Söylə, nədən heç danışıb gülmürsən,
Dərdi bölmək yüngüllükdü, ən azı.
* * *
Əlimizdən nə gəlir ki, ay insan,
Bircə təsəlliyə gücümüz çatır.
Artıq dərd-azara öyrəşmiş cansan,
Sənə ağıl vermək ancaq baş qatır.
* * *
Bu dünyanın əvvəli bu, sonu bu,
Hara qaçaq, hara gedək bilmirik.
Altın torpaq, üstün səma, yanın su,
Yağ içində yaşamağa gəlmirik.
* * *
Beş-on illik ömür düşür bizlərə,
Baş açılmır, dərd qoymur ki, güləsən.
İynə batsın xain, yaman gözlərə,
Hardan dəyir, onu necə biləsən?!
* * *
Murad dərdə yaxınıydı, bilərdi,
Yeri, yurdu, xarabası haradı.

Ağ olsaydı bəlkə xoşa gələrdi,
Ay dilbilməz, dərdin rəngi qaradı.

**AĞRIN ALIM**

Bir başa sal, qoy anlayaq, danış bizə, ağrın alım,
Hardan gəldin şeiriyyata, uydun sözə, ağrın alım.
* * *
Bax dərd olar, seçilməzsən, yazdıqların itər, batar,
Bu yol yaman çətin yoldu, girmə gözə, ağrın alım.
* * *
Çoxdu səni istəməyən, nankor, naqis, kor adamlar,
İnsan hər cür çətinliyə gərək dözə, ağrın alım.
* * *
Yazan gərək aqil ola, gördüyünü dərk eləyə,
Bu dünyanı bir dolanıb, azca gəzə, ağrın alım.
* * *
Əvvəl bir bax, seyr elə sən, doğru olsun dediklərin,
Dediyini quru demə, bir az bəzə, ağrın alım.
* * *
Tanrı bizi bu dünyada dara salır, çox sınayır,
Bəndə gərək nə usana, nə də bezə, ağrın alım.
* * *
Bu SÖZ ki var, çox köhnədi, çox işlənib, sən ayıq ol,
Elə fikir söylə ki sən, olsun təzə, ağrın alım.
* * *
Murad, sən də çox öyünmə, azdı hələ bildiklərin,
Şair odu hər gedişi yaxşı çözə, ağrın alım.

**ZAMAN**

Zaman ömrün qənimi,
Köhnə sözdü. Yenimi?!
Mən dəyişdim yönümü,
Yol aldım günbatana.
* * *

Ömür gödək, vaxtım dar,
Ağ gün inan baş qatar,
Gör nə qədər borcum var,
Hər dadıma çatana.
* * *
Minnət olar, borc alma,
Məni hörmətdən salma.
Canım, qəti bənd olma,
Şərəfini satana.
* * *
Tamahın cibi dolmur,
Gül açır, gülü solmur,
Tanrı da kömək olmur,
Ömrü boyu yatana.
* * *
Dinmədimsə, hey yandım,
Özümə günah sandım.
Söz deməyə utandım,
Dərdimə dərd qatana.
* * *
Gərək qəlbin düz olsun,
Söz deməyə üz olsun.
Murad niyə boz olsun,
Hörmətini tutana?!

**BİLMİRƏM**

Bəlkə də, fikrimi düz deyənmirəm,
Safdı, sağlamdımı canı, bilmirəm.
Nə danım, olur ki, mən bəyənmirəm,
Ruhumun bəzəyi hanı, bilmirəm?!
* * *
Hər kəsin fikrinə hörmət edirəm,
İzi bilinməyən yoldu gedirəm.

Sonu nə olacaq, onu güdürəm,
Əvvəli aydındı, sonu, bilmirəm.
* * *
Nə yazdım canına istilik keçmir,
Sanki buz bağlayıb, gözüm su içmir.
Bezdim isitməkdən ruhuna köçmür,
Görən açılarmı donu, bilmirəm?!
* * *
Murad pərvanədi duyan kəslərə,
Ona hörmət edib sayan kəslərə.
Mənim sözlərimi yayan kəslərə,
Borcum nə olacaq, onu bilmirəm?!

**BƏIKƏ DƏ…**
Sına qismətini, həmişə sına,
Tanrının səbrini yoxlamaq üçün.
Nə bəxtdən gileylən, nə Onu qına,
Nəyə sahibsənsə, onunla keçin.
* * *
Çalış ki, özünü sevindirəsən,
Gördüyün hər işdən ləzzət alasan.
Tər töküb zəhmətlə ömür sürəsən,
Halal davranasan, halal qalasan.
* * *
Dünyanın növrağı gözündən düşə,
Şeytan aldatmaya, ağlın çox ola.
Evində bir qismət qaynaya, bişə,
Gözün axtarmaya, nəfsin tox ola.
* * *
Möhtac olmayasan tanışa, yada,
Nə olsa dərdini özün çəkəsən.
Pislik etməyəsən kimsəyə, ya da
Yaxşılıq toxumu səpib əkəsən.
* * *

Ağlını almaya Allah əlindən,
Bütün sınaqlardan quru keçəsən.
Övlad inciməyə acı dilindən,
Gecənin birində sakit köçəsən.

**QƏZƏL**

Arif olub söz deyəsən, yanında ustadın ola,
Sözdən xalı toxuyasan, yaddaşlarda adın ola.
* * *
Elə şirin danışasan, hər kəlməndən gül qoxuya,
Sözdən şərbət düzəldəsən, ağızlarda dadın ola.
* * *
Zəhmət çəkib böyüdəsən, arzuların puç olmaya,
Baxıb hər an sevinəsən, ağıllı övladın ola.
* * *
Yeriyəndə şax gəzəsən, qızarmaya heç vaxt üzün,
Gendən baxıb gülməyələr, saf kökün, əcdadın ola.
* * *
Nə papağı yerə düşə, nə də insan pərt olmaya,
Hər kişinin arxasında söz anlayan qadın ola.
* * *
Murad hələ çox cavansan, Yaradana yalvar hər gün
Ağlın səni xar etməyə, pozulmayan yadın ola.

***yad- yaddaş mənasında işlənir.***

**MURAD MƏMMƏDOVUN YAZILARI**




**MURAD MƏMMƏDOVUN KİTABI**

**Mustafa Müseyiboğlu adına kitabxana**



## TURAN NOVRUZLU

**Mənim kiçik nağılım**

Sən mənim kiçik nağılım
Nənədən, babadan
Dovşandan, ayıdan
Qaçan qoğalım…
Elə elə ki, axırda
Sarı tülkü yeməsin Səni
Sən mənim
Qapı döyülən kimi
Qapını açan Məngülümüm
Bəzən canavarın qarnı kimi
Dar olur həyat…
Onda Ana keçi köməyə gəlir
Sənə “can” deyib ana səsi
Çıxaranlar
Ətini, canını yeməyə gəlir…
Sən mənim kiçik nağılım
Yalan danışanda
Burnu uzanan Pinokyom
Oğul ən çox kimə
Yalan danışar bilirəm…

Amma Pinokyonu
Balinanın qarnından
Atası xilas eləmişdi…
Bəs mən kiməm?
Olsam olsam “Pinokyo” dakı
Pəri olaram…
Sadəcə yanlışlarını xatırladan
Başqa nə gəlir ki əlimdən?
Ya da Yunan əfsanəsindəki
Günah keçisi…
Mənim şirin nağılım
Elə ki, sonda
Göydən üç alma düşür
Qoy biri Atanın biri Ananın
Biri də sənin olsun…
Çünki ömrün sonu
Nağılların əvvəli kimi olur :
“Biri var idi, biri yox idi…”

**Sevdiyin olum**
Deyirlər ki, adamlar öləndə
O dünyaya gedir,
Ruh olur, pəri olur ,
Mən öləndə
Kitab olmaq istəyirəm
Çünki sən
Kitabları çox sevirsən
Elə zərif oxuyursan ki,
Vərəqləri qat kəsmir
Elə təmkinlə oxuyursan ki,
Ürəyin heç hara tələsmir
Mən öləndə
Kitab olmaq istəyirəm
Otağının bir küncündən

Səssiz -səmirsiz
Hava almaq üçün
Eyvana çıxdığına
Yatanda yorğanı qucaqlayıb
Başının altına yığdığına
Səhərlər deyinə-deyinə
Oyanmağına tamaşa eləyim…
İstəyirəm ki, mən öləndə
Kitab olum …
Əlinə alanda ovunduğun
Sətirlərini oxuyanda
Səsimi duyduğun…
Kitabları çox sevirsən
Bilirəm…
Qoy, heç olmasa
Öləndən sonra
Sevdiyin olum…

**Lozan xala kimi**

Bilmirəm fikir veribsən ya yox
Beşiklərin yastığında
Gecə-gündüz yatan
Körpələrin başının izi qalar
Bax eləcə izin qalıb köksümdə…
İndi yanımda olsan
Başını sinəmdəki
O məchul boşluğa sıxıb
Elə möhkəm
Qucaqlayardım ki, Səni
Sonra da çərpələng
Qollarına bürünərdim
Axşamın mehindən
Səhərin şehindən
Beləcə gizlənərdim

Qollarının arasında…
Nə qədər başımı qatsam da
Hər kəslə danışıb
Səsimi başıma atsam da
Gecələr elə pis göynəyirsən ki,
Ürəyimin yarasında
Mopassanın
“Bir yaz axşamında”kı
Lozan xala kimi
Elə kimsəsizəm ki…
Bəzən divarın o tərəfindəki
Həzin bir səs, xəfif bir gülüş
Qanadar yaralarımı…
Nə qədər uzağa qaçsam da
Yenə elə həminkiyəm…
Ruhuma hopmuş
Qanıma qarışmış, zalım,
Üz çevirib getsən də
Yenə elə səninkiyəm…

**SƏN**
Gözümü açanda Sən,
Yumanda Sən…
Arada qeybə çəkilib
Məndən sevgi uman da Sən
Sevilmək necə imiş
Qollarında anladım
Həsrətin acısını
Gedib geri döndüyün
Yollarında anladım
Xəyal da Sən, arzu da Sən
Güman da Sən…
Ən dəyərsiz adamlara
Yaş oduntək

Yanan da Sən…
Səni heç kim anlamaz
Bilirəm ki, mənim kimi
Ruhumda gizləmişəm
Varlığını, könlünü
Mən ən məhrəm
Qəmim kimi…
Ürəyinə qurban olum üzülmə
Sənin daşın ağırdı…
Yaxşı da Sən, yaman da Sən
Ən dəyərsiz adamlara
Saflığından yanan da Sən…

**Yad olanım**
Bitib-tükənməyən
Yollar kimisən
Mənzilimə
Gedib çata bilmirəm
Kəfənə bükülmüş
Qollar kimisən
Köksünü
Bağrıma basa bilmirəm
Ehh mənim özgə olanım
Yad olanım…
Gecəmi gündüz eləyənim
Məni görəndə şad olanım…
Nə qədər uzandı
Taleyin oyunu
Vəzir də usandı
Şah da yoruldu.
Neçə fəsil keçdi
Neçə il oldu
Göydən gah od ələndi
Gah yağış yağdı

Gör neçə toz basmış
Xatirələr var…
Gör neçə arzular
Sönüb kül oldu
Tanrı nələr yazıb
Daha bilmirəm
İçimdə
Qurumuş ağacın pöhrəsitək
Yaşıllanan xəyalsan
Amma daha
Nə kötükdən ağac olar
Nə də pöhrə bar verər…
Mən hardan tapım ki,
Həzrəti Yusifi
Züleyxaya könül verə,
Tac verə…
Ehh mənim özgə olanım
Yad olanım
Ürəyi məndə olub
Başqasına ad olanım
Nə yaman uzandı
Taleyin oyunu…

**YORULDUM**
Yoruldum axı
Çox yoruldum
Səni qəlbimdə gəzdirməkdən
Kürəklərim qırıldı
Ayaqlarım süst düşdü
Yoruldum axı
Yeni doğan itin
Canına daraşıb süd əmən
Küçüklərə sakitcə baxdığı kimi
Boylanıram sənli xatirələrə

Yoruldum axı…
Leysan yağışlardan sonra
Palçıqdan gözü tutulmuş bulağın
Aram – aram axdığı kimi…
Darıxdım axı
Elə darıxdım ki
Saçlarının qoxusu gəlir burnuma
Sahibsiz küçə pişiyi
Pəncəsi açıq evlərdən gələn
ətin qoxusunu duyduğu kimi…
Oyandım axı
Mən bu eşqdən alasərsəm,
Hövlnak oyandım
Bələkdəki çağanın şirin yuxudan
Qəfil səksənib oyandığı kimi…
Yoruldum axı
Ürəyim yoruldu
Ölüm döşəyində son nəfəsini
Səssizcə gözləyən qocalar kimi…
Səni çox sevdim axı
Hisinə – pasına dözən,
Atəşi çox sevən bacalar kimi…

**Kirpi öpüşü**
Gəl, kirpi kimi öpüşək
Göz- gözə, nəfəs-nəfəsə
Sən yanımda olanda
Gözlərimi yummayım
Sənli dəqiqələr heyifdi axı…
Gəl, kirpi kimi qucaqlaşaq
“Tikanlarımız” incitsə də
Vaz keçməyək bu sevdadan
Bir gül üzək kolundan
Tikanları mənim

Ləçəkləri Sənin olsun
Gəl, kirpi kimi küsək
Sözümüz çəp gələndə
Səssiz-səmirsiz…
Yumarlanıb yuvamıza çəkilək
Barışanda sincab kimi barışaq
Saxladığı fındıqların
Yerini unudan sincab kimi
Niyə küsdüyümüzü xatırlamayaq
Gəl, bu ömrü doğma kimi yaşayaq
Nə qədər uzaqlarda olsaq da
Bir-birimizi yadırğamayaq…
Gəl, kirpi kimi öpüşək
Göz-gözə nəfəs – nəfəsə…
Hardan tapım
Ürəyim darıxsa nə var idi ki
O köhnə sirdaşımdı
Dərdləşib bir təhər
Yola gətirərdim
İndi bilmirəm axı
Darıxan əllərimə nə deyim ki
Anlasın məni…

**Hardan tapım**
Çərpələng qollarını
Qucaqlasın məni
Ürəyim darıxsa nə var idi ki
Saçlarım darıxır
Hardan alım
Daraq barmaqlarını
Ürəyim sızlasa nə var idi ki
Boynum üşüyür
Hardan tapım
Ana südü kimi

İlıq dodaqlarını…
Yarasını sevərsən
Bir gün birisi gələr ömrünə
Yarasını sevərsən
Ömrünün yarısı
Su kimi axar ovuclarından

**Yarısını sevərsən…**
Bir gün biri gələr ömrünə
Sən onun gülüşlərini sevərsən
Bəzən dünyanın
ən mənasız sözlərini deyərsən
təbəssümünü görmək üçün
O isə göz yaşlarına aşiq olar
əlindən gələni edər
ağlayasan deyə
Sən də onun gözləri
Doyana kimi ağlayarsan
Uşaqlıq yaraları
Qaysaq bağlasın deyə
Beləcə bir gün
Biri gələr ömrünə
Sən də onun yarasını sevərsən
Nə qədər qəlbini qırsa da
Sevməyə səbəb qalmasa belə
Gözlərinin qarasını sevərsən…

**Evcik – Evcik**
Mən evcik evcik
Oynamaq istəmirəm, ana
Oyuncaq beşikdə
Gəlinciklər almayaydın kaşki
Böyüyüb kimlərinsə
əlində oyuncaq olduq

Indi də xoşbəxtliklə
Gizlənqaç oynayırıq
Daha beşikdəki körpələr
Doğrudan ağlayır
Gah ağrıdan, gah acından
Bu oyuncaq evdə "yad qızıyam"
Ömrümə pay düşüb
ən ucuzundan…
Daha oyun oynamaq istəmirəm
Bənövşə-bənövşə deyə deyə
Bəndə düşən biz olduq
Kaşki kitab olmağı
Öyrədəydin, ana…
Onda oyuncaq olmazdım
Öz romanımı yazardım
Ən başından
Gül açardım kəlmə kimi
Sətir kimi…
Susmağı da öyrənərdim
Yağmurlara sinə gərən
Bir təmkinli çətir kimi…
Kitab olmaq istəyirəm
Oxumağı ən çox sevən
Varaqlasın…
Ən maraqlı səhifələri
əlfəcinlə daraqlasın…
Mən evcik evcik
Oynamaq istəmirəm, ana
Bu oyun bitmir ki, bitmir
Gecələr gözümə yuxu da getmir…

**Sənə…**
Mən sənə nə deyim axı
Qırıb dağıtmağa

Uşaqlıqdan alışmısan
Əvvəlcə ananın qablarını
Sonra
Qəlbini qırmağı öyrənibsən
Qonşuların pəncərələrinə də
Daş atıbsan çox güman
Beləcə daş-qalaq etməyi
Dağıdıb tökməyi öyrənibsən
Mən sənə nə deyim axı
Elə bil heç böyüməmisən
Maşa ilə döyülən uşaq
Mən sənə nə deyim axı
Elə darıxmışam ki
Sığal – sığal, qucaq – qucaq…

**UNUDACAM…**
Bir gün unudacam axı Səni
Balaca uşaq sındırdığı oyuncağı
Yatana kimi ağlasa da
Oyananda unutduğu kimi…
Bir gün unudacam axı Səni
Yaşlı tənha qadının
Sevimli itinin öldüyünü
Yaddaşı pozulanda
Unutduğu kimi…
Bir gün unudacam axı Səni
Gələn baharın keçən bahardakı
Gülləri unutduğu kimi
Təzə çiçəklər açacam
Kəsilmiş ağacın
Yeni pöhrəsi kimi…
Yenə gülümsəyəcəm
əməliyyat otağında
Gözlərini yenidən açan

Xəstənin çöhrəsi kimi…
Sən ki, yaxşı bilirsən keçi inadımı
Dəmir Ledi kimi susacam
Nə vaxtsa çağırsan adımı.
Dişlərim dodağımı kəssə də
Saçlarımı isladan yağışa
Yas tutub ağlamayacam
Xatirələrim səni
Qəlbimdən danacaq
İçim özümü yandırsa da
Çölüm səni yandıracaq
Özgələr sən adlı yaramı
Qısqanacaq…
Bir gün unudacam axı Səni
Yanımdan yel olub keçsən də
Sən tərəfə baxmayacam
Bir gün unudacam axı Səni
əvvəl-axır unudacam…

**TURAN NOVRUZLUNUN YAZILARI**



**Təranə DƏMİR**

## “Ulduz”un Qulu Ağsəs dönəmi

(*təəssüratlar*)

Azərbaycanın mətbu orqanları içərisində öz çəkisi, sanbalı və dəyəriylə seçilən (zənnimcə, ən birincilər sırasında duran) “Ulduz” bu günəcən çox uzun, keşməkeşli və dolanbac yollardan keçib. Uşaqlığımızın, gəncliyimizin jurnalı olaraq həmişə diqqət mərkəzində olub və oxucu sevgisini bu günəcən qoruyub saxlayıb.

Sözünü deyən, öz imzası ilə dünəndən bu günə inamla yol gələn yaradıcı insanların söz yuvası olub həm də “Ulduz”. Bu yuvada nə qədər şairlər, yazıçılar yetişib, pərvazlanıblar. Jurnal bütün dönəmlərdə həmişə ən aktual mövzulara toxunmaqla ölkənin mədəni həyatındakı bütün yenilikləri özündə əks etdirib. Onun formalaşmasında, ölkənin ədəbi mühitinin işıqlanmasında böyük əməyi olan, öz peşəkarlığı və obyektivliyi ilə seçilən yaradıcı heyətin əməyi də danılmazdı. “Ulduz” ulduz olaraq bütün zamanlarda mənən saflaşdırıb,

öyrədib. Axı mətbuat zamanın aynasıdı deyirik. Burda hər şeyi olduğu kimidi. Dünyanın hər üzü.
Jurnal 1967-ci ildən üzübəri müxtəlif söz adamlarının rəhbərliyi altında fəaliyyət göstərib və həqiqətən, zaman-zaman həqiqi ulduza çevrilib. Hansı yandan baxsaq, "Ulduz" ulduzdu.



…Bu günsə mən " Ulduz"a Qulu Ağsəs tərəfdən baxmaq istədim. Mübaliğəsiz. Eynəyinin arxasından ürəyindəkiləri oxuya-oxuya həm də.
Qulu Ağsəs çalışqandı. Hətta deyərdim ki, bir az da artıq çalışqandı. Bu çalışqanlığın arxasında həm də sələflərinin qoyub getdiyi işə peşəkarlıqla yanaşmaq məsuliyyəti də var. Zarafat deyil, " Ulduz" mətbuat tarixinə öz adını möhürləmiş, dəyərli ustadların əlindən, zamanın ələyindən keçmiş, gözəl

ədəbi nümunələri özündə ehtiva edən, müəyyən yaşa çatmış ədəbiyyat jurnalıdı. Bu ağır yükün altına girmək, onu bu gündən sabaha ötürməksə hər yaradıcıya nəsib olmaz. Qətiyyətlə deyə bilərəm ki, “Ulduz” bu gün bir Qulu Ağsəs dönəmini yaşayır. Bir az da işıqlı, bir az da parlaq. Özünəməxsusluq da var bu dönəmdə. Həm də heç kimə bənzəməmək, özünə can atmaq həvəsi. Jurnalı vərəqlədikcə hiss edirsən ki, Ağsəs üçün forma və məzmun mükəmməlliyi, mətn rəngarəngliyi və dolğunluğu önəmlidi. Bilirsən ki, şair irəliyə can atır, yenilik axtarışındadı. Bunu jurnalın hər buraxılışında hiss edirsən.
Şair üçun mətn də adamdı. Canı, ruhu var. Onun fikrincə, mətni incitmək olmaz. Mətnin nazıyla oynamaq lazımdı. Gözümüzün nuruyla, ürəyimizin oduyla yetişdirib ərsəyə gətirdiyimiz yazılar öz yerini tapanda çiynimizdən böyük bir yük götürülür. Baxın, biz təkcə öz yazılarımızın məsuliyyətini daşımaqda çətinlik çəkirik. Qulu Ağsəs isə hər buraxılışda bizim kimi neçə müəllifin narahatlığını və məsuliyyətini öz üzərində hiss edir, hər mətnin üzərində öz balası kimi əsir. Narahat olur, qoruyur. Ta ki, jurnal ərsəyə gələnəcən, yeni “Ulduz” doğulanacan. Bir yandan oxucu zövqü, bir yandan müəllif hüquqlarının qorunub saxlanılması baxımından hər şeyin dolğun və mükəmməl ərsəyə gəlməsi üçün yorulmadan, gecə -gündüz çalışır. Özü də yüksək peşəkarlıqla. Həm də sevgiylə. Ümumiyyətlə, Qulu Ağsəs mükəmməlliyə can atan yazardı. Amma bununla belə ən zəif yazıların taleyi də onu narahat edir. Əlbəttə, müəlliflə oxucu arasında narazılıq yaratmadan həm də. İşinin ustası olmaq hər rəhbərə, hər işçiyə nəsib olmur bəzən. Amma inamla deyə bilərəm ki, Qulu Ağsəs gözəl şair, gözəl publisist olmaqla yanaşı, gözəl icraçıdı həm də. “Ulduz”-un heç bir buraxılışı bir-birini təkrarlamır və əvəz etmir. O, hər dəfə görüşümüzə fərqli məzmunda, fərqli keyfiyyətdə gəldikcə bir daha əmin oluruq ki, ruhumuzun jurnalı əmin əllərdədi . “Ulduz” üz qabığından tutmuş içindəki

yazılara qədər ulduzdu. Qulu Ağsəs şeirində olduğu kimi işində də son dərəcə tələbkar və məsuliyyətlidi. Gənc istedadlılara göstərdiyi qayğı və diqqət isə bir ayrı söhbətin mövzusudu. Onun həm də vaxta , zamana çatmaq öhdəlikləri də var. Hər şey zamanında və dəqiqliklə həyata keçməlidi. Bəlkə də, qıraqdan bir az sərt görünə bilər. (Eynəkdə). Amma yalnız uzaqdan. Şair-rəhbər, rəhbər-şair redaksiyaya təqdim olunan bütün yazıları gözlərinin nurundan keçirir. Dərc olunan mətnlərin üstündəki işıq gözünü qamaşdırır və öz-özünə “belə insanlar varsa, yaşamağa dəyər”-deyirsən. Bu yazdıqlarım Qulu Ağsəs haqda düşündüklərimin yalnız balaca bir hissəsidi. Əminəm ki, Ağsəsin söz və öz dünyasına işıq tutmaq üçün hələ çox zamanımız olacaq. Hələliksə, ədəbiyyatın keşiyində dördgözlə dayanan şairə sevdiyi işində dözüm, səbir və mətanət arzulayıram . Onsuz da uğur həmişə var.
Görüşənədək, əziz oxucu!

**TƏRANƏ DƏMİRİN YAZILARI**




**YAZARLARIN TRİBUNASI** :

Azərbaycan Respublikasının Prezidenti
cənab İlham Əliyevə
Möhtərəm cənab Prezident!
Sizin ölkəmizə rəhbərliyinizin 20 ili tamam olur.
Siz ötən iyirmi ildə hər bir azərbaycanlının Prezidenti, lideri olmağı bacarmış dövlət başçısısınız. Bu, yalnız sözdə ifadə olunan deyim yox, mütləq gerçəklik, danılmaz reallıqdır. Elə bir reallıq ki, özündə canlı tarixi yaşadır. Sizin sayənizdə ölkəmizin son iyirmi ili hər bir vətəndaşın, qəlbi Azərbaycan sevdası ilə döyünən hər bir şəxsin düşüncəsində böyük və şanlı tarixdir. Bu tarixi yaradan Siz olmusunuz!
Azərbaycanın bütün sahələrdə tərəqqisi və dinamik inkişafı, dünya dövlətləri sırasında özünə layiqli yer tutması fədakar əməyinizin qürur dolu məhsuludur. Cəmiyyətimizin bütün təbəqələrinin təmsilçiləri kimi, media nümayəndələri də bu qüruru və fəxarət hissini yaşayırlar.
Prinsipial və qətiyyətli mövqeyinizin böyük Azərbaycan davası naminə olduğunu görmək və duymaq bizləri bəxtiyar edir. Dövlətimizin mövqeyini, Prezident və Ali Baş Komandan kimi fikirlərinizi son dərəcə səlis şəkildə bəyan etməklə, bütövlükdə siyasi nitqin, ictimai-publisistik üslubun mükəmməl örnəyinə imza atmısınız. Qəlbimizi Sizə olan dərin rəğbət hissi ilə dolub-daşdıran həm də budur.
Jurnalistikaya diqqətiniz, peşənin nüfuzunun yüksəldilməsinə həssas yanaşmağınız, onun ölkəmizin həqiqətlərinin təbliği istiqamətindəki missiyasına verdiyiniz dəyər yüksək qədirbilənlik nümunəsidir. Dövlət idarəçiliyində, beynəlxalq münasibətlərdə, milli mənafe naminə

mübarizədə medianın rolunu, jurnalistlərlə məqsədyönlü ünsiyyətin nə dərəcədə yüksək önəm daşıdığını bütün aydınlığı ilə nümayiş etdirmisiniz. Ona görə media ilə bağlı çıxışlarınızda səsləndirdiyiniz hər bir fikri sahənin daha da inkişafına yönələn yol xəritəsi kimi qəbul edirik. Media və mətbuata göstərdiyiniz həssas münasibət jurnalistlərlə işgüzar təmaslara verdiyiniz önəm bu il Milli Mətbuat Günündə müqəddəs, əziz Şuşamızda gerçəkləşən Beynəlxalq Media Forumunda da örnək sayılacaq təcəssümünü tapdı.
Siz jurnalist əməyinə dövlət səviyyəsində ali qiymət verilməsini ənənə halına gətirən, jurnalistikamızın potensialını dövlətimizin və cəmiyyətimizin maraq və mənafelərinin qorunmasına səfərbər edən mükəmməl institusional baza yaratmısınız. Həyata keçirdiyiniz islahatlar nəticəsində bu gün peşəmiz təşkilatlanmış struktura malikdir. Sərəncamınız əsasında yaradılmış Medianın İnkişafı Agentliyinin reallaşdırdığı fəaliyyət, beynəlxalq standartlara cavab verən "Media haqqında" Qanunun qəbulu sahəyə fundamental yanaşmanı ortaya qoymaqdadır. Bütün bunlar isə qarşımızda yeni vəzifələr müəyyənləşdirməkdədir. Çalışacağıq ki, etimadınızı gözləntiləriniz səviyyəsində doğruldaq. Əlbəttə, onu da yaxşı dərk edirik ki, Sizin kimi, sözün əsl mənasında, dünya miqyaslı dövlət adamının etimadını doğrultmaq son dərəcə müstəsna məsuliyyətdir.
Möhtərəm cənab Prezident!
Siz həm dahi siyasi xadim, böyük hərbi strateq, həm də informasiya cəbhəsində, media-mətbuat müstəvisində haqlı savaş aparmağın ustası olaraq təkrarsız nümunələr göstərdiniz. Vətən müharibəsi günlərində dünyanın nüfuzlu media orqanlarına, tanınmış jurnalistlərə müsahibələriniz, televiziya ilə çıxışlarınız xalqımıza və ordumuza döyüş ruhu, möcüzəvi qələbə əzmi aşılamaqla yanaşı, istər siyasi xadimlərə, istərsə də media nümayəndələrinə əsl ustad dərsləri kimi tarixə həkk olundu. Gərgin əməyinizin nəticəsi gözlərimiz önündədir.
Bu gün Siz xəyalların gerçəkləşdiyi böyük Azərbaycana rəhbərlik edirsiniz. Ötən iyirmi ildəki arzu və ideyalarda başlıca xətti isə Qarabağ amalı təşkil edib. Əminliklə deyə bilərik ki, liderlik keyfiyyətləriniz bu amalı vahid hərəkat halına gətirdi. Elə bir hərəkat ki, xalqımızı xoşbəxtlik, Sizi Müzəffərlik məqamına ucaltdı. Bu gün əminliklə onu da

deyə bilərik ki, Ümummilli liderimiz Heydər Əliyevin ruhu şaddır. Çünki onun başladığı Qarabağ davası müasir liderlik xarakterinizdən irəli gələn xüsusiyyətlər nəticəsində məntiqi sonluğuna – Zəfərinə qovuşub. Bu səbəbdən Sizə dövlət başçısı kimi fəaliyyətinizin iyirmi illiyi ilə bağlı ürəkdən gələn düşüncələrimizi çatdırarkən, Azərbaycan torpaqlarının işğaldan tamamilə azad edilməsi, dövlətimizin suverenliyinin bütün ərazilərimizdə bərpası münasibətilə dərin təşəkkürümüzü də bildirməyi özümüzə borc sayırıq.
Möhtərəm cənab Prezident!
Ölkəmizə rəhbərliyiniz dövründə millətimizə nəhayətsiz sevinc və qürur hissləri yaşatdığınız üçün Sizə Azərbaycanın çoxminli jurnalistlər ordusu adından sonsuz minnətdarlığımızı çatdırır və qarşıdan gələn dövrdə Sizin rəhbərliyiniz ilə xalqımızın daha böyük nailiyyətlər əldə edəcəyinə, dövlətimizin şanlı qələbələr qazanacağınıza əmin olduğumuzu bildiririk.
Tanrı Sizi qorusun!
Tanrı Vətənimizi qorusun!
Azərbaycan Mətbuat Şurası İdarə Heyəti

**Mənbə: Rəşad MƏCİD**

**“YAZARLAR” FOTO QALEREYA, JURNALI PDF**



**TƏQDİMATLAR**

“Yazarlar” jurnalının ***“TƏQDİMATLAR”*** rubrikası fəaliyyətə başlayıb.
Foto-məqalələr **YAZARLAR.AZ** saytında və jurnalda dərc olunur.

## “Xəzan” jurnalının baş redaktoru, əslən Zəngilandan olan yazıçı, I Qarabağ müharibəsi iştirakçısı Əlibəy Azəri ilə görüş keçirilib

**Hərbi – vətənpərvərlik mövzusunda görüş**
25 oktyabr Xaqani Poeziya Evi və Mərkəzləşdirilmiş KS-nın birgə təşkilatçılığı ilə “Xəzan” jurnalının redaktoru, əslən Zəngilanımızdan olan yazıçımız, I Qarabağ müharibəsi iştirakçısı Əlibəy Azəri ilə görüş keçirilib.
Tədbir Dövlət Himnimizin səsləndirilməsi və Şəhidlərimizin ruhunu bir dəqiqəlik sükut ehtiramı ilə açıldı. Mədəniyyət Mərkəzinin direktoru Şəfiqə Məmmədova tədbir iştirakçılarını salamlayandan sonra Poeziya Evinin müdiri, şair AY Bəniz Əliyar qonağın tərcümeyi-halı və ədəbi fəaliyyəti haqqında

dolğun məlumat verdi. Çıxışçılar arasında Shabran Mks -nin direktoru Firəngiz Aslanova, yerli yazarlardan şair Bayram Novruz, Əşrəf Dağbilicili, Nermine Rzayeva, Gülnar Zakir Qızı, yazıçı dostlardan Daşqın Məmmədov, Vüsalə Anar da var idi. Məktəblilər də tədbirə xüsusi rəng qataraq onları maraqlandıran sualları müəllifə ünvanladılar.
Tanınmış yazıçı hərbi-vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlər haqqında və keçdiyi döyüş yolundan söz açdı, sualları cavablandırdl, kitablarından tədbir iştirakçılarına hədiyyə etdi. Tədbirdən fotolar:



**“XƏZAN” JURNALI PDF**

==============================================
<<<<<<**WWW.YAZARLAR.AZ** və **WWW.USTAC.AZ**>>>>>>




DİRÇƏLİŞ PROSESİ
KEÇİR."
100













***Fotoqraf: Füzuli Baratov***

Nəticədə tədbir iştirakçıları yazıçının hərbi-vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlər, "XƏZAN" jurnalı və keçdiyi döyüş yolu ilə tanış olub. Maraqlı diskusya şəraitində baş tutmuş görüşü zamanın tələbləri ilə səsləşən, aktual məsələlərin həlli istiqamətində təklifləri özündə ehtiva edən faydalı tədbirlərdən biri kimi dəyərləndirmək lazımdır.

**"YAZARLAR" JURNALI** olaraq, bu qəbildən olan bütün fəaliyyətləri yüksək qiymətləndirir və işıqlandırmaqdan qürur duyuruq. Uğurlarınız bol olsun!!!

***Mənbə: Xaqani Poeziya Evi***

**MƏLUMATI HAZIRLADI: TUNCAY ŞƏHRİLİ**

>>>>>>>>>>>>>>>>>>>>>>>>>>**"YAZARLAR"**

**Mustafa Müseyiboğlu adına kitabxana**


Filoloq

## DOĞUM GÜNÜ TƏBRİKİ

**Mahirə NAĞIQIZI** 1960-cı ilin noyabr ayının 4-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Sust kəndində anadan olub. Ailə vəziyyətlə bağlı Xalxal kəndinə köçmüş, 1968-ci ildə Xalxal kənd səkkizillik orta məktəbin birinci sinfinə daxil olmuşdur. Yaşayış yerini yenidən dəyişməklə əlaqədar olaraq, 1978-ci ildə Abşeron rayonu Mehdi Hüseynzadə adına Novxanı qəsəbə 1 saylı orta məktəbi bitirmişdir. 1980-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə qəbul olmuş, 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir

1984-cü ildən təyinatla Abşeron rayonu Mehdiabad qəsəbə 1 saylı orta məktəbdə pedaqoji fəaliyyətə başlayan **Mahirə** xanım bu gün də şərəfli peşəsini ən yüksək səviyyədə layiqincə davam etdirir.

**Mahirə NAĞIQIZI** 2017-ci ildən filologiya üzrə elmlər doktorudur. 2018-2021-ci illərdə ADPU-nun Filologiya fakültəsinin dekanı olmuşdur. Təhsil nazirinin müvafiq əmri ilə 2021-ci ilin aprelindən etibarən ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru təyin olunub

**YAZARLAR** cameəsi adından **Mahirə** xanımı təbrik edir, bütün həyat və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq!

**MƏLUMATI HAZIRLADI: TUNCAY ŞƏHRİLİ**

**QEYDLƏR**




**MAHİRƏ NAĞIQIZININ YAZILARI**

**Mustafa Müseyiboğlu adına kitabxana**

**VAQİF SULTANLININ YAZILARI**

**ZAUR USTACIN YAZILARI**

**> > > > MÜTLƏQ OXUYUN !!!**

**"YAZARLAR" JURNALI PDF**

>>>>>>>>>>>>>**"YAZARLAR"**

**"TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!"**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

"Yazarlar"ın redaksiyasında yığılıb səhifələnir,
"El kitab çapı" mərkəzində çap olunur.
Çapa imzalanıb: 01.11.2023
Sifariş: №:72
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.